### Taxıl biçini başa çatdı

# 64.645 ton Qəbələ taxılı

Uzun illərdir Qəbələ taxılçılıq rayonu kimi şöhrət qazanıb. Kənd təsərrüfatı məhsulları istehsalında xüsusi çəkisi olan rayonun fermerləri və torpaq istifadəçiləri, heyvandarları ölkədə ərzaq Proqramının müvəffəqiyyətlə yerinə yetirilməsində öz sözlərini deyirlər. Dövlət tərəfindən edilən güzəştlərin, verilən subsidiyaların, aşağı faizlə verilən uzun müddətli kreditlərin nəticəsində son bir neçə ildir ki, kənd təsərrüfatı məhsulları istehsalında onlar ölkə üzrə ən yaxşı yerləri tuturlar. Artıq taxılçılar əkin-biçin mövsümündə məsuliyyətlərini birə iki qat artırır, ən məhsuldar və keyfiyyətli toxum sortlarından istifadə edərək bol məhsulun etibarlı təməlini qoyurlar. Eyni zamanda onlar əkin sahələrinin yüksək səviyyədə şumlanmasına, səpinin aqrotexniki qaydada aparılmasına daha çox əhəmiyyət verirlir.



Odur ki, taxılçıların zəhməti hədər getmir, zəmilərdə nəzərdə tutulandan çox məhsul yetişir. Bu il həm yazqabağı, həm də məhsul yığımı mövsümündə havaların əlverişli keçməsi zəmilərdən bol arpa və buğda toplanmasına şərait yaratmışdır. 2014-cü ilin payızında bu ilin məhsulu üçün 21 min hektardan artıq sahədə məhsul yetişdirilmişdir. Bundan 14 min hektarı buğda, qalanı isə arpa sahələri idi. Fermerlər və torpaq istifadəçiləri itkiyə yol verməmək üçün taxıl yığımına vaxtında hazırlıq işləri görmüş və zəmilərə kifayət qədər saz kombaynlar və taxıl daşıyan, texnika yanğından mühafizə vasitələri çıxarmışlar. Yığım kampaniyası dövründə elə gün olub ki, biçində təxminən 100-ə qədər kombayn və bir o qədər də digər köməkçi texnika iştirak etmişdir. Hazırda taxıl biçini başa çatdırılmışdır. Arpa sahələrinin hər hektarından orta hesabla 29,1 sentner məhsul götürülərək 21.245 ton arpa, buğda sahələrinin hər hektarından isə 31 sentner məhsul yığılaraq 43.446 ton buğda hasil olunmuşdur. Cəmi rayon üzrə 64,645 ton taxıl istehsal edilmişdir. Bu da keçən illə müqayisədə yaxşı göstricidir.

Bu il taxıl istehsalının artımında toxumçuluq təsərrüfatları, fiziki şəxslər, «Gilan» MMC-nin kollektivləri, Nic qəsəbəsinin, Bayramkoxalı, Kürd, Əmirvan, Böyük Əmili və başqa kəndlərin əməkçiləri yüksək nailiyyətlərin sahibləri olmuşdur.

Zəmilərdən taxılın tez və itkisiz yığılmasında «Aqroservis» Qəbələ filialı mexanizatorlarının rolu və əməyi daha çox olmuşdur. Filialın texnikası sahələrdən son sünbülün biçini başa çatana kimi zəmilərdə fasiləsiz işləmiş, gündəlik biçin normasını artıqlaması ilə yerinə yetirmişlər. Biçinlə məşğul olan mexanizatorlara iş üstündə qayğı göstərilməsinə xüsusi diqqət yetirilmişdir. Onlar müntəzəm olaraq çayla, isti yeməklə təmin olunmuşlar. Bunlar həm işin sürətini, həm də keyfiyyətini artırmışdır.

«2015-ci il Kənd Təsərrüfatı ili» elan olunması taxılçıların əkin-biçinə marağını xeyli artırmışdır. Məhz buna görə gələn ilin məhsulu üçün taxıl əkininə indidən hazırlıq görülür, şum traktorlarının, toxum səpən aqreqatların təmirinə başlanılmış, toxum təmizlənir, bəzi təsərrüfatlarda yay şumu çıxarılır. Az vaxt ərzində 1000 hektara yaxın sahədə yay şumu çıxarılmış, xeyli miqdarda toxum təmizlənərək səpin üçün hazırlanmışdır. Toxumun təmizlənməsi işi davam edir. Bütövlükdə hal-hazırda taxılçılıqla məşğul olan bütün fermer təsərrüfatları, eləcə də torpaq istifadəçiləri rayonda çörək bolluğu, malqara, toyuq-cücələrə yem bazası yaratmaq üçün daxili imkanlardan, ehtiyat mənbələrindən, dövlətin yaratdığı əlverişli şəraitdən yaradıcılıqla istifadə edir, bütün qüvvə və bacarıqlarını bu istiqamətə yönəldirlər.

**Aslan CƏLİLOV.**

## *Azərbaycanda hər gün orta hesabla 440 körpə dünyaya gəlir*

Dövlət Statistika Komitəsi bu maraqlı göstəricini 11 iyul-- Ümumdünya Əhali Günü ilə əlaqədar mətbuata təqdim etmişdir. Məlumata görə bu ilin 5 ayı ərzində Azərbaycan əhalisinin sayı 9 milyon 636 min 300 nəfərə çatıb. Əhalinin sıxlığı bir kvadrat kilometrə 111 nəfərdir.

Əhali sayının 53,1 faizi şəhər sakinlərindən ibarətdir, 46,9 faizi isə kənd yerlərində yaşayır. Kişilər əhalinin 49,8 faizini, qadınlar 50,2 faizini təşkil edir.

Əhalinin yaşını göstərən rəqəmlərə gəldikdə 14 yaşınadək olan uşaqlar 22,4 faiz təşkil edir. Əhalinin çox hissəsi--71,6 faizi 15-64 yaşındadr. 6 faizi isə yaşı 65 və bundan yuxarı yaşdadır.

Cari ilin ilk 5 ayında ölkədə 66,4 min, yaxud orta hesabla hər gün 440 körpə doğulub. Əhalinin hər min nəfəri hesabı ilə bu göstərici 16,9 olub. Dünyaya gələn körpələrin 53,6 faizi oğlan, 46,4 faizi qız uşaqlarıdır. Körpələrin 1556-sı əkizdir. Başqa sözlə, 578 ailə eyni vaxtda iki övlad sahibi olub. 11 ailə isə üçəmlə sevinib (33 üçəm anadan olub).

İlin yanvar-may aylarında rəsmi orqanlar tərəfindən 32,6 min nigah və 5,3 min boşanma halları qeydə alınıb. Daimi yaşamaq üçün 5 ay ərzində ölkəyə 1034 nəfər gəlmiş, ölkədən gedənlərin sayı isə 355 nəfər olmuşdur.

### Ağdamın işğalından 22 il keçir

# Ümidlər həqiqətə çevriləcək

Belə bir deyim var: Yaman günün ömrü az olar. Amma 22 ildir ki, Qarabağın cənnət guşəsi Ağdam erməni işğalçılarının tapdağı altındadır. 22 ildir ki, ağrısı, əzabı çəkilməz olan Ağdamsız günlər sona yetmir. Dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunmuş, çadır düşərgələrinin məşəqqətlərindən qurtulub hər cür şəraitə malik olan yeni qəsəbələrdə rahat mənzillərə qovuşmuş ağdamlılar Ağdamdan ümidlərini üzməyiblər, onlar bu gün də böyük inamla, ümidlə erməni cəlladlarından qisas alacaqları, ata-baba torpaqlarına dönəcəkləri günü intizarla, həsrətlə gözləyirlər. Bu yenilməz ümidi, bu sarsılmaz inamı onlarda ölkə başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yeritdiyi müdrik və uzaqgörən siyasəti doğurur.

1993-cü ilin iyununda erməni təcavüzkar qüvvələri ölkəmizdə tüğyan edən özbaşınalıqdan, siyasi böhrandan istifadə edərək yeni hücum əməliyyatına başladı. Ermənistanın işğalçı qüvvələri bu özbaşnalıqdan, siyasi böhrandan istifadə edərək Ağdam rayonunun Qarqarçayı, Saybalı kəndinə qədər ərazisini işğal etdi. Cəbhə yerli özünümüdafiə batalyonlarının ümidinə qalmışdı. Düşmən sürətlə irəliləyirdi. Malıbəyli kəndində güclü döyüşlər gedirdi. «Fred» ləqəbli Asif Məhərrəmovun müdafiə batalyonlarının döyüşçüləri iyunun 22--23-də bütün günü və gecəni düşmənlə əlbəyaxa döyüşdülər. Lakin kömək gəlmədiyi üçün geri çəkildilər. İyulun 23-də 43 gün düşmənə sinə gərmiş Ağdam şəhəri süqut etdi. Yağı düşmən evlərə od vurur, mədəniyyət abidələrini dağıdır, insanların əmlaklarnı qarət edir, şəhəri tərk edə bilməyən dinc əhaliyə amansız divan tuturdu. Ağdam rayonunun 1094 kv km-lik ərazisi hakimiyyət uğrunda gedən siyasi didişmələrin təxribatlarının və xəyanətlərinin qurbanı oldu. Amma ağdamlılar bütün dönəmlərdə dövlətə və dövlətçiliyə sədaqətli olublar. 22 ildən bəri davam edən üzücü məcburi köçkünlük illərində ağır şəraitdə yaşasalar da, irili-xırdalı problemlərlə üzləşsələr də öz dövlətlərinə, bu dövlətin sükanı arxasında qətiyyətlə dayanan Prezident İlham Əliyevə güvəniblər. Qaçqın və məcburi köçkünlərin problemlərinin həllinin öz fəaliyyətində həmişə prioritet məsələ olduğunu bəyan edən Prezident İlham Əliyev bir tərəfdən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqları dəyişməz mövqedən, torpaqlarımızın bir qarışını güzəştə getmədən son dərəcə prinsipiallıqla davam etdirirsə, digər tərəfdən doğma yurd-yuvalarından rahat ev-eşiklərindən didərgin salınmış çoxsaylı məcburi köçkünlərin həyat səviyyəsini yüksəltmək, onların mənzil-məişət şəraitini yaxşılaşdırmaq üçün zəruri tədbirlər görmüşdü. Prezidentin diqqət və qayğısının nəticəsidir ki, son illər Ağdam rayonunun işğal altında olmayan ərazisi indi yeni şəhər və qəsəbələri xatırladır. Rayon mərkəzinə çevrilmiş Quzanlı qəsəbəsi böyük həvəslə yenidən tikilərək müasir şəhərə çevrilmişdir. Burada dövlət başçısının təşəbbüsü ilə tikilmiş Avropa standartlarına cavab verən Olimpiya İdman kompleksi cəbhə bölgəsində yaşayan gənclərə böyük dövlət töhfəsidir. Burada xəstəxananın, inzibati binaların, vətən uğrunda şəhid olanların xatirəsinə inşa edilmiş abidə kompleksinin, doğum evi və uşaq xəstəxanasının və sair zəruri obyektlərinin tikilib istifadəyə verilməsi əhali tərəfindən razılıqla qarşılanmışdı.

Bölgədə tikinti, abadlıq, quruculuq işləri geniş miqyas alsa da hər kəsin qəlbində heç vaxt silinməyən müqqədəs bir istək var. Bu, doğma torpaqlara qovuşmaq, düşmənlərimizin yerlə-yeksan etdiyi Ağdamı yenidən qurmaq istəyidir. Bu məqsədə çatmaq üçün hər kəs bacardığını edir, əlindən gələni əsirgəmir. Ağdamda uşaqdan böyüyə, qadından kişiyə hər kəs silaha sarılıb Qarabağın azadlığı uğrunda müqəddəs və həlledici savaşa atılmaq üçün Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin əmrinə müntəzirdir. Sözsüz ki, tez-gec Qarabağın bütünlüklə tarixini, onun maddi- mənəvi sərvətlərini özündə minilliklər boyu qoruyub saxlayan Ağdam işğaldan azad olunacaq, dağıdılmış, talan edilmiş qədim yaşayış məntəqələrindəki mədəniyyət abidələrinin yenidən bərpası isə bir vətəndaşlıq borcu kimi bugünkü nəslin üzərinə düşəcək.

**Aslan CƏLİLOV.**